# Bələdiyyə vergiləri və ödənişlərlə bağlı qanun layihəsi müzakirə olunub

Noyabrın 3-də Milli Məclisin Regional məsələlər komitəsinin onlayn formatda iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Siyavuş Novruzov noyabrın 8-də Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfərimizin ildönümünün qeyd olunacağını diqqətə çatdırıb. O, Zəfərin qazanılmasında canlarını fəda etmiş şəhidlərə rəhmət, müharibədə iştirak etmiş qazilərə cansağlığı arzulayıb. Müharibədə bizi Qələbəyə aparan amillərdən danışan Siyavuş Novruzov Azərbaycan xalqını və ordusunu bir yumruq kimi səfərbər edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderlik keyfiyyətlərini xüsusi vurğulayıb.



Sonra gündəlikdəki "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edən komitə sədri sənəddə yerli əhəmiyyətli tikinti materialları üzrə (kərpic-kiramid gilləri, tikinti qumları, çınqıl xammalı) bələdiyyə büdcəsinə ödənilən mədən vergisinin dövlət vergilərinə aid edildiyini bildirib.

Komitə üzvləri Məzahir Əfəndiyev, Kamran Bayramov, Cavid Osmanov, Səttar Möhbalıyev qanun layihəsinin müzakirəsində çıxış ediblər. Bildirilib ki, sənəd Milli Məclisin müzakirəsində olan Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə uyğun olaraq hazırlanıb. Bələdiyyələrin yerli vergiləri toplamaqda qarşılaşdıqları problemlərdən danışan komitə üzvləri xüsusən bu vergi növü üzrə onların yığımlarının çox cüzi olmasına diqqət çəkiblər, bu vergi növü üzrə yığımların vergi orqanlarına tapşırılması təqdir edilib.

Deputatlar qanun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

İclasda Regional məsələlər komitəsi sədrinin müavini Elşən Musayev, komitə üzvləri Nizami Cəfərov, Emin Hacıyev, Malik Həsənov, Səbinə Xasayeva, Aqil Məmmədov, Tahir Rzayev, Əliabbas Salahzadə və digər şəxslər də iştirak ediblər.

Azərbaycan.- 2021.- 4 noyabr.- S.3.